*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 440-444*

https://doi.org/10.62837/2025.1.440

**GÜNAY QARAYEVA**
**AMEA.Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu**
**Bakı, Hüseyn Cavid pr.117**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**
**gunaygarayeva@gmail.com**

# BƏDİİ SİMVOLDA LİRİK "MƏN", ZAMAN VƏ CƏMİYYƏT

**XÜLASƏ**

Simvolların dəyişimi, transformasiyası şairin zamana, ideoloji quruluşa baxış nöqteyi-nəzərindən asılı olaraq dəyişilə və hər bir şairin yaradıcılığında fərqli assosiasiyalar doğura bilər. Bəzən eyni obraz-simvolun ayrı-ayrı şairlərin yaradıcılığında fərqli interperetasiyası onların üslubunun açılması, mənəvi-əxlaqi, ideloji, siyasi görüşlərinin ümumiləşməsinə istiqamətlənir. Eyni simvolik obrazın çeşidli məna çalarlarının yaranması şairin ictimai-siyasi görüşlərinin, qurluşun təsirinin əsası kimi görünür. Simvol zamanın spesifik xüsusiyyətlərini, daha qabarıq cəhətlərinin bədii obrazda ümumiləşməsidir. Onda mütləq şəkildə dövrün konteksti olur. Zaman, ideologiya dəyişməsə simvollar da donuq, dəyişməz olaraq qalır. Obrazın interperetasiyası, simvol transformasiyalarını formalaşdıran əsas cəhət zaman faktoru, onu dərk və dəyərləndirmə mexanizmidir.

**Açar sözlər: şeir, bədii simvol, lirik "mən", zaman faktoru, cəmiyyət, ideologiya**

Poetik kateqoriyalar içərisində universallığı, çoxmənalılığı və mürəkkəbliyi ilə seçilən bədii simvol kanonik mədəniyyət kodlarının ən dərin qatlarını yeni düşüncə parametrlərinə uyğun olaraq müxtəlif kontekslərdə yeniləyə bilir. Simvol öz məna bütövlüyünü qoruyub saxlayır, o itmir, ölmür, yaddan çıxmır, unudulmur. Mədəni yaddaşın özülündə mövcud olan bədii simvolun təkrarlanması bir tərəfdən yaradıcı şəxsin həyata, mühitə baxışını əks etdirirsə, digər bir tərəfdən isə zamanın və cəmiyyətin normativlərinin əsas meyarına çevrilir. Məhz bu baxımdan simvol yalnız estetik funksiya daşımır, həm də fəlsəfi, psixoloji, tarixi-ədəbi mətn yaddaşına çevrilir. F.Kreyser "Simvolika və mifologiya" əsərində simvola "sonsuz", "təfsir edilməyən" xassələrini verir (3, s. 201). Simvol ilə alleqoriya arasındakı fərqliliyi göstərərək bu terminləri səciyyələndirmə baxımından fərqləndirir. Fərqlilik nümunəsi olaraq zaman kateqoriyasının önə çıxması fikrimizcə simvol nəzəriyyəsində xüsusi əhəmiyyət kəsb etməklə yanaşı simvolun fərqləndirici xüsusiyyətlərindən biri kimi şərtlənir. Simvoldakı dəyişgənliyi, yaddaşda mövcud olan simvolların ayrı-ayrı simvolik sistem daxilində fərqlənməsi, onların yenidən yaradılması və simvola ölməzlik hüququ verən zaman faktorudur. Digər tərəfdən isə

ideyalı obraz, obrazın müəyyən ideyanın, mücərrəd anlayışda həqiqi məzmunun, müəyyən zaman üçün qabarıq reallığın mövcudluğudur.

Zaman və ictimai mühit konteksti ifadə məqamına görə simvol tiplərində dəyişilə bilir. Zaman, ideologiya dəyişdikdə simvollar da yenilənir, dəyişilir, yeni məna çalarları yaranır. Burada kosmoqonik, astral simvollar, mədəni-kultroloji yaddaş simvolları, dini simvollar, romantik simvollar, fərdi-intiutiv simvollar götürülə bilər. Bütün simvol tiplərinin dəyişmək, yenidən dövriyəyə gəlmək xüsusiyyəti mövcuddur. Simvolun işləkliyini, ölməzliyini şərtləndirən ən başlıca xüsusiyyətlərdən biri də budur. Hər dövrün öz ədəbi üslubu olduğu kimi, üslubi açarı vardır ki, bu da həmin dövrü xarakterizə etmək, öyrənmək, analiz etmək üçün əsas vasitədir. Həmin funksiyanı həyata keçirən vasitələr içərisində simvollar əsas rol oynayır. Yaradıcılıq prosesində simvolun yaranması üçün zəmin olacaq vasitələr lay-lay açılır. Burada yalnız müəyyən məna daşıyıcısına çevrilən, seçilən obraz deyil, obrazın əlamət və xarakterindən kənara çıxan, hüdudlarda dayanan zaman, sosial-ictimai məzmun, dünyagörüş və ideya aparıcıdır.

Zamanın bədii düşüncədə fərdi qavrayış və dərk prosesi obraz-simvollarda müəyyən ideoloji qurluşun anlaşılması üçün əsas vasitəyə çevrilir. Düzdür, bu müəllifin siyasi-ideoloji mühiti qəbul etməsi və dəyərləndirməsi baxımından fərqli ola bilər. Lakin eyni anda həm ideallaşdırılan cəmiyyətin, irreal mühitin bədii simvollarla realaşdırılması müəllif mövqeyinin simvol kontekstində daha dolğun, tutumlu görüntüsünə imkan yaradır. M.Müşfiqin "Xəzan içində bahar" (8, s. 30) şeiri bu baxımdan seçilən nümunələrdəndir. Şeirdə sovet qurluşunun mahiyyətini, xarakterini açan obraz və detalların hər bir biri simvolik səciyyə daşıyır, bahara qarşı qoyulmuş xəzan vasitəsilə iki bir-birinə zidd quruluşun xarakteri açılır, müəllif mövqeyindən simvollar vasitəsilə birbaşa çıxışla zamanın real mənzərəsi yaradılır.

Obraz-simvollar şairin zamana baxış fəlsəfəsini şərtləndirən əsas vasitələrdən biridir. Bəzən eyni obraz-simvolun ayrı-ayrı şairlərin yaradıcılığında fərqli interperetasiyası onların üslubunun açılması, mənəvi-əxlaqi, ideloji, siyasi görüşlərinin ümumiləşməsinə istiqamətlənir. 1920-ci illər Azərbaycan şeirində işlək simvollardan biri "şimal yeli", "şimal küləyi" obrazıdır. Obrazın müxtəlif çalarlarına folklor, klassik şeir nümunələrində rast gəlmək mümkündür. Ə.Cavad (2, s. 13), A.İldırım (1, s. 20), M.Müşfiq (8, s. 116) və b. yaradıcılığında işlək olan şimal yeli obrazı bütün məqamlarda mənfi assosiasiyalar doğurur, Sovet Rusiyasını obrazlaşdırır, Azərbaycan istiqlalının süqutu, yeni hökumətin despot rejiminin obrazına çevrilirdi. Lakin S.Vurğun yaradıcılığında "şimal ruzgarı" tam fərqli, digər şairlərə zidd bir məzmunda işlənir.

Şairin "İnqilab yurdu" (10, s. 88) şeirində "şimal rüzgarı" nın yaratdığı fərqli assosiasiyalar dövrün və zamanın psixologiyasına fərdi münasibəti, yanaşmanı simvolik obrazın çoxmənalılığı və dəyişimində daha aparıcı vasitələrdən birinə çevirir.

Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257
Filologiya məsələləri № 1, 2025
Səh. 440-444

Zaman və ictimai qurluşun dəyişilməsi, hər bir qurluşun yaratdığı əxlaqi-mənəvi dəyərlər, yeni psixologiya bədii simvolların işləklik funksiyasını dəyişə və yeniləyə bilir. Simvollarda dəyişgənliyi, ideya dəyişimini yaradan, yeniləyən əsas məqamlardan biri də budur. Burada simvol nəzəriyyəsi ilə bağlı bir məsələyə də toxunmaq istərdim. Simvolun anlayış baxımından səciyyələndirilməsində bir çox müəlliflərin də qeyd etdiyi kimi əsas məqamlardan biri onun mürəkkəb estetik kateqoriya kimi çoxmənalılığı, dəyişgənliyi qeyd olunur. Lakin simvol öz-özünə dəyişə və ya yeni məna xüsusiyyəti kəsb edə bilməz. Əvvəla hər bir obrazın simvola keçmək xüsusiyyəti var, düzdür bu vacib və mütləq deyil. Simvolun obrazlılıq funksiyası obraz funksiyasını saxlamaqla simvolik məzmun o zaman qazanmış olur ki, bədii mətn üç müstəvini tələb edir. Bədii düşüncə, ideologiya, zaman faktoru. Zaman, ictimai-sosial mühitə müdaxilənin konturları dəyişilib yeniləndikcə simvol xüsusiyyəti kəsb edən obrazlaşmış obyekt, predmet, hadisə və s. yeni kontekstə keçir, simvol yenilənir. Zaman bədii simvol və yaxud simvolik təsvirdə ümumiləşdirilən fikrin bətnindən doğulan obrazdır. Əgər mətn həmin faktordan kənar düşünülərsə, təbii ki, öz məzmununda daşıdığı fikri-hissi ümumiləşdirmə gücünü itirəcək.1920-30- cu illərdə ictimai həyatda aparılan quruculuq işləri prosesində "lirik "mən"ə dövlət diktəsinin fiziki və mənəvi təsiri poetik təfəkkürü fərdi düşüncə meylindən uzaqlaşdıraraq ümumiləşmiş kütlə düşüncəsinin ifadəsinə çevirirdi. Lakin 1960-80-ci illərə doğru ədəbi mühitin yenilənməsi ilə insana, təbiətə, cəmiyyətə, zamana münasibətdə yeni bədii təfəkkürün formalaşması poetik fikirdə dönüş yaratdı və poeziyada fərdi düşüncəyə meyillənmə hiss olunmağa başladı. Bu baxımdan M.Müşfiqin "Yalnız ağac"(8, s. 116) və M.İsmayılın eyni məfhumu ifadə edən "Tək ağac" (7, s. 38), M.Yaqubun "Təkqayada bitən vələs" (12, s. 213) şeirlərində ağac simvolik obrazı zaman faktorundan irəli gələn fərqli xüsusiyyətləri səciyyələndirmək baxımından xarakterik nümunələrindəndir.

1960-cı illər şeirində zamanın simvolik obrazlar silsiləsi yarandı. Bu bir tərəfdən dəyişilən zaman, zamanın içində yaranan yeni tendensiyalar, insanın mənəvi aləminə, psixologiyasına enmə ilə bağlı idisə, digər tərəfdən cəmiyyətin özündə sürətin artması, texnikanın sürəkli inkişafı ilə əlaqəli idi. Dəyişilən zamanın meyarları bədii düşüncəyə də təsirsiz ötüşmürdü. Çox zaman bu qəbildən olan şeirlərə fəlsəfi şeirlər istiqamətində yanaşılırdı. R.Rza, F.Qoca, Ə.Kərim, B.Vahabzadə, M.Araz və b. şeirlərində zaman müxtəlif simvolik mənalandırmalara çevrilirdi. Bu məqamı F.Qoca yaradıcılığında müşahidə edən ədəbiyyatşünas V.Yusifli yazır: "F.Qoca poeziyasında da fikrin sürəti ilə zamanın sürəti arasında bu nisbət diqqət mərkəzindədir. Gah şair fikri zamanı – dialektik vaxt axarını ötüb keçir, gah zaman özü insanları onun sürətilə ayaqlaşmağa səsləyir" (13, s. 19).

Simvol zamanın spesifik xüsusiyyətlərini, daha qabarıq cəhətlərinin bədii obrazda ümumiləşməsidir. Onda mütləq şəkildə dövrün konteksti olur. R.Rzanın "Qoca timsah" (9, s. 38), "Fil və filban" (9, s. 49), "Tufan önündə" (9, s. 94),

H.Arifin "Dərələr çəkir(4, s. 58), "Söyüd payası" (4. s. 72), H.Kürdoğlunun "Palıd yanır, tək yanır (5, s. 294), M.Arazın "Bir ağac yıxıldı" (6, s. 148) və s. şeirlərdə ictimai məsələlərin qabardılması, obraz, təsvir, obyekt fonunda zaman kontekstində müəyyən sosial-fəlsəfi mətləblərin ideyaya çevrilməsi həm konkret zamanın dinamikasını izləmək, həm də bədii simvolun fərdi üslub polifonizmində individuallığını şərtləndirən əsas cəhətlərdən biri idi.

Simvol bədii mexanizmdir. Onun hər zaman təkrarlanmaq, yenilənmək və dövriyəyyə tam yeni konteksdə gəlmək imkanı var. Burada diqqət çəkən məqam isə bədii simvolun əldə etdiyi bu xüsusiyyətlərin ideologiya, zaman və cəmiyyət psixologiyasına uyğun olaraq yenilənməsidir. Poeziyada işlək olan simvol tiplərinin zaman və fərdin psixologiyasına uyğun olaraq dəyişməsi, yenilənməsi labüddür. Bədii simvol bu baxımdan ictimai-sosial münasibətləri, zamanın spesifik xüsusiyyətlərini, dinamikasını konkret işlək obrazın və ya obyekt, predmet fonunda ümumiləşdirir, ideyaya çevirir. Zaman, ideologiya dəyişməsə simvollar da donuq, dəyişməz olaraq qalır. Obrazın interperetasiyası, simvol transformasiyalarını formalaşdıran əsas cəhət zaman faktoru və zaman daxilində onu dərk və dəyərləndirmə mexanizmidir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Almas İldırım Almas İldırım.Seçilmiş əsərləri. Bakı, "Öndər" nəşriyyatı, 2004, 160 s.
2. Cavad Əhməd. Seçilmiş əsərləri.İki cilddə, I c., Bakı, Azərnəşr, 1992, 328 s.
3. Creuzer, F (1810-1812). Symbolik and Mythologie der alten Volker, besonders der Griechen/ 4 Bde/ Leipzig Darmstadt/
4. Hüseyn Arif. Seçilmiş əsərləri.Bakı, "Şərq-Qərb", 2004, 224 s.
5. Kürdoğlu Hüseyn. Seçilmiş əsələri. I c., Bakı, Sabah, 2011.294 s.
6. Məmməd Araz. Seçilmiş əsərləri. İki cilddə, I c., Bakı, "Lider nəşriyyat", 2004, 225 s.
7. Məmməd İsmayıl Seçilmiş əsərləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1992, 304 s.
8. Mikayıl, Müşfiq. Həyat sevgisi. Bakı, Yazıçı, 1988, 304 s.
9. Rəsul Rza. Seçilmiş əsərləri. V cilddə, III c., Bakı, Azərnəşr, 2002, 293 s.
10. Vurğun, Səməd. Seçilmiş əsərləri. Beş cilddə, I c., Bakı, Şərq-Qərb, 2005, 264 s.
11. Vurğun, Səməd. Seçilmiş əsərləri, Beş cilddə, II c.,Bakı, Şərq-Qərb, 2005, 248 s.
12. Musa Yaqub.Bu dünyanın qara daşı göyərməz. Bakı, Azərnəşr, 1997, 1140 s.
13. Yusifli V. Ürəyimi sərdim günəşə. Bakı, "Təbriz" nəşriyyatı, 1997, 96 s.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2025*
*Səh. 440-444*

**GUNAY GARAYEVA**

## LİRİCAL "ME" İN ARTİCTİC SYMBOL, TİME AND SOCİETY

## ABSTRACT

The transformation and change of symbols can vary depending on the poet's perspective on time and ideological structure, and can evoke different associations in each poet's work. Sometimes, the interpretation of the same image-symbol by different poets can open up their style and reflect their moral, ethical, ideological, and political views in a generalized way. The emergence of various meanings within the same symbolic image appears to be based on the poet's socio-political views and the influence of the system. A symbol represents the specific characteristics of a time, and its more prominent features are generalized in the artistic image. It always carries the context of the era. If time and ideology do not change, symbols remain static and unaltered. The interpretation of the image and the transformation of symbols are primarily shaped by the factor of time and the mechanism of perceiving and evaluating it.

**Keywords: poetry, artistic symbol, lyrical "me", time factor, society, ideology**

**ГЮНАЙ КАРАЕВА**

## ЛИРИЧЕСКОЕ «Я», ВРЕМЯ И ОБЩЕСТВО В ХУДОЖЕСТВЕННОМ СИМВОЛЕ

## РЕЗЮМЕ

Изменение символов, их трансформация зависит от взгляда поэта на время, идеологическую структуру и может порождать различные ассоциации в творчестве каждого поэта. Иногда интерпретация одного и того же образа-символа в творчестве разных поэтов направлена на раскрытие их стиля, обобщение их морально-этических, идеологических и политических взглядов. Возникновение различных смысловых оттенков одного и того же символического образа, по-видимому, является основой влияния общественно-политических взглядов поэта и структуры. Символ — это обобщение специфических особенностей времени, его более ярких черт в художественном образе. В нем обязательно присутствует контекст времени. Если время и идеология не меняются, символы остаются застывшими, неизменными. Интерпретация образа, трансформация символов формируется на основе временного фактора, механизма его восприятия и оценки.

**Rəyçi: Filologiya elmləri doktoruu Sara Osmanlı**